BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2011*

# YENİ NƏŞRLƏR

## KLASSİK POETEXNİKA VƏ FƏLSƏFİ TƏFƏKKÜRÜN VƏHDƏTİ (M.Abdullayevanın «Klassik poeziya: ezoterik xəzinə» monoqrafiyası, Bakı, 2009, 328 s.)

**M.Ə.QURBANOVA**
*Bakı Dövlət Universiteti*

Klassik poeziyanın fəlsəfi fikir və düşüncə ilə sıx bağlılığı heç vaxt bu qədər aydın dildə ifadə edilməyib. M.Abdullayeva ilk dəfə, həm klassik fəlsəfi təfəkkürün dərin səviyyələrindən, həm də klassik Azərbaycan poeziyasının batini məzmununun mükəmməlliyindən geniş və sistemli şəkildə bəhs etmişdir. Onun monoqrafiyasında bədii təfəkkürün dərin fəlsəfi mahiyyətindən, fəlsəfi düşüncənin bədii ifadəsindən, belə fikirlərin indiki düşüncəmizdə əksindən geniş və dərin elmi fikir açıqlanır.

Fəlsəfi dünyagörüşün poetik formada təqdim olunması ənənəsi həm şərq, həm də qərb fəlsəfi mədəniyyətləri üçün xarakterikdir. Bunu hər iki qütbün görkəmli söz ustadlarının, mütəfəkkirlərinin əsərlərində görürük. Qərbdə fəlsəfi təfəkkürün bədii sözdə ən gözəl təcəssümü Şekspir poeziyasıdır.

Dünyada fəlsəfə və ədəbiyyat sahəsində filosof Frensis Bekon və V.Şekspir məsələsi həll olunmamış qalır. Burada bu şəxslərin eyni illərdə yaşaması elə də böyük deyil, vacib olan bu şəxslərdən hansının filosof, hansının ədəbiyyatçı – şair, dramaturq olmasıdır. Maraqlıdır, F.Bekonun fəlsəfi fikirləri ilə V.Şekspirin bədii əsərlərindəki fikirlər arasında elə sıx bağlılıq var ki, bu şəxslərin eyni subyekt olmasına şübhə yaranmır. Biz belə bir faktı da qeyd etməliyik ki, «Bekon sandığı» kimi anılan gerçəkliyi hamı bilir. Bu sandığın açılması məsələsi fəlsəfə ilə bağlı insanların hamısına məlumdur. Bu iki şəxs varmı, olubmu? Bəlkə F.Bekon öz fəlsəfi fikirlərini ifadə etmək üçün, həm də bədii əsərlər yazıb? Bəlkə V.Şekspir öz bədii fikrini, həm də fəlsəfi əsərlərlə sübut etməyə cəhd göstərib? Analoq var: Volter öz fəlsəfi konsepsiyalarını anlatmaq üçün bədii əsərlər də yazırdı.

Bu əsərdə ilk dəfə olaraq M.Abdullayeva sakral informasiya və onu ötürmə – cəmiyyətə çatdırma vasitələrindən, qlobal miqyasda şərq və qərb ifadə məkanlarında özünü əks etdirmə yollarından söhbət açır. Sanki belə məqamda M.Abdullayeva özü-özünə sual verir və cavab taparaq onu ortaya qoyur. Müəllifin ən böyük uğuru bəşəriyyətdə dinlərarası anlaşmanı və insan təfəkkürünün məkan anlayışı olmadan eyniyyət təşkil etməsini açıqlamasıdır.

M.Abdullayeva alim kimi kimsədən soruşmur, özü sual verir və cavabı da mükəmməl şəkildə göstərir. Belə çətin mövzuda elmi əsər yazmaq müəllifdən güclü intellekt, ağıl və təcrübə tələb edir.

Maraqlıdır, sakral informasiyanı çatdırmağın yolu yalnız daxili psixoloji məqamlamı – insanın kosmik məlumatı ötürmə istəyiləmi bağlı idi? Təbii ki, bu məsələ qütbsal olaraq şərq və qərb üzərində dartışıla bilməz. Çünki «heç bir qüvvənin dəyişdirə bilmədiyi aşkar və gizli qanunların (harmoniyanın! – M.Q.) vahidliyinin sirrini özündə daşıyan» ezoterik bilik, anlam və qavram (24) belə məqamda kosmopolitik təfəkkürün, bəşəri izahın müstəvisinə çıxır. Əlbəttə, Yaradanın Vahidliyi bu məqamda canlıların ümumi Vətən anlayışını qəbul etməyə əsas verir. Burada supramental təfəkkür özünü yalnız Mütləq Həqiqətin yalnız qavranmasında deyil, həm də bunu ifadəyə xidmət edir. Əlbəttə, sakral anlam gizlidir, fərdidir, kimsənin anlaya bilmədiyi və sənin anlatmaq istədiyin doğal-təbii fikirlərin çatdırılması kimi kosmoqonik formada insan beynində qəbul edilir. Volter özünün fəlsəfi fikirlərini insanlara çatdırmaq üçün traktat yazırdı – anlaşılmırdı. Volter «komdid, yaxud sadəlövh» yazanda öz fəlsəfi fikirlərini yalnız qərbə deyil, bütün dünyaya açıqlaya bildi və onun fəlsəfi fikirləri ilahi və insani təmiz fikirlər kimi qəbul edildi.

Bunlar Mətanət Abdullayevanın çox sanballı fəlsəfi-filoloji əsərində yalnız əksini tapmamışdır, həm də bunlar, əsəri oxuyanda insanda yaratdığı fikirlərdir. Elə elmi monoqrafiyalar var ki, onları oxuyanda oxucuda heç bir fikir yaratmır. M.Abdullayevanın əsərini oxuyanda, bəlkə də nə vaxtsa oxunmuş əsərlər yada düşür. Sanki müəllifin bu əsəri insan təfəkküründə qarışıq olan informasiyaları sistemləşdirir.

Bu dediklərimiz Mətanət Abdullayevanın «Klassik poeziya: ezoterik xəzinə» (Bakı, 2009) adlı monoqrafiyasının yaratdığı fikirlərdir. Bu monoqrafiyanın ən böyük üstünlüyü o deyil ki, burada fəlsəfə ilə poeziyanın qarşılıqlı bağlılığının anatomiyasından söhbət gedir, həm də burada təfəkkür paralelliyi faktlar əsasında sübut edilir. Sakral təfəkkürdə informasiyanın analizi və müxtəlif forma və şəkillərdə – biz burada poetik, rəsm, musiqi və digər ifadə formalarını da istisna etmirik – çatdırılması və bunların ayrı-ayrı formaları haqqında məlumatlar monoqrafiyada əksini tapmışdır.

Monoqrafiyada bəşəriyyətin əbədiliyi, kamil olan keçmiş sivilizasiyalar problemi, ilahi eşqin dərki, ilahi eşqin – Tanrıya-Yaradana eşqin, yalnız şərq və qərb qütbləri ilə bağlı deyil, bütün bəşər həyatında mikron – xarici aləmlə bütün baxımlardan gerçəklik müstəvisinə çıxarılmışdır.

Əsərin ən böyük dəyəri, həm də budur ki, araşdırma yalnız Azərbaycan milli təfəkkür arealı ilə məhdudlaşmır. Bu əsər istənilən dünya dövlətində ümumbəşəri araşdırma kimi qəbul edilə bilər. Çünki burada bəşəri dəyərlərin konkret millətə mənsubluğu deyil, hamıya aidliyi elmi əsaslarla sübut edilmişdir.

M.Abdullayeva çox çətin bir fəlsəfi və filoloji problemi tədqiq və təhlil etmişdir. Biz fəlsəfi fikirlərin poetik dillə ifadəsini dillə – qrammatika ilə bağlamaq istəməzdik. Çünki müəllifin monoqrafiyası, haqlı olaraq yalnız bir

millətin, xalqın təfəkkürünü və dilini nəzərdə tutmur, həm də bəşəri və əbədi olan Böyük Yaradanı, ilahi olan eşqi mistik və ezoterik anlamda ifadə edir.

Qeybin sirlərinin dərk olunması (44) heç də həmişə bədii formatda ortaya çıxmır. Bunun ortaya çıxması ədəbi-bədii formatdan özgə, həm də kosmoqonik çatdırılma müstəvisində müxtəlif sahələri də əhatə edə bilər. Bəli, irrasional idrak bizə hələ də bəlli olmayan, anlamadığımız Mütləq Həqiqətin aspektlərini aça, kainatın rəmzlərini göstərə bilər.

M.Abdullayeva, əslində, qeybin sirlərinin dərk olunması yollarını poeziyada axtarır (44). Burada, biz hesab edirik ki, müəllifin klassik poeziyaya – ədəbiyyata – söz sənətinə müraciəti çox düzgündür. Haqlı olaraq müəllif Mütləq Həqiqəti – Tanrını anlamaq baxımından dinlərarası çəkişməyə diqqəti yönəldir. Əlbəttə, burada dinlərarası savaşdan deyil, Yaradanı necə, hansı vasitə ilə qəbul etmədən və çatdırmadan, açıqlamadan söhbət gedir. İlahi olanı qavrama ilahi olanın öz seçimidir. Ki, onun buyurduqlarını kim, harda necə mükəmməl şəkildə çatdıracaq. Həqiqətin çatdırılması üçün bütün yollar və vasitələr də Yaradan tərəfindən verilir.

Burada müəllifin dəyərli fikirlərindən biri də odur ki, insan olanı müxtəlif dini anlama görə ayırmaq və qarşı-qarşıya qoymaq mümkün deyil.

M.Abdullayeva monoqrafiyada fəlsəfi fikirlərin çatdırılmasında poeziyanın, bədii sözün üstünlüyünə diqqəti cəlb edir. Əlbəttə, Nizami, Nəsimi, Füzuli kimi söz ustadlarının əsərlərində Şərq fəlsəfi fikrini anlamamaq mümkün deyil. Sevindirici haldır ki, müəllif Şərq ədəbiyyatının bəşəriliyini göstərir. Sufi poeziyasının yalnız ədəbi-bədii fikir olmadığı, eyni zamanda şərq-qərb dünyagörüşünün təzahürü olması bu araşdırmada aydınlığı ilə üzə çıxır.

M.Abdullayeva öz araşdırmasında mistik təcrübənin irrasional bilik əldəetmə metodu kimi həm bədii ədəbiyyat – fəlsəfi poeziya kontekstində, həm də Uzaq şərq və qərb bədii-fəlsəfi traktatları kontekstində araşdırılmasına xüsusi önəm verir. Sufi təfəkkürü anlayışının Nizami, Nəsimi, Füzuli kimi sənətkarlarda sakral anlamdan daha çox gerçək və real təsəvvürlər olduğunu monoqrafiyada aydın görürük.

Monoqrafiyada şərq-qərb fəlsəfi mədəniyyətində fikir və dünyagörüşü tərzinə diqqət çəkilir. Nə imiş nəfs, mərifət yolu, mistik eşq, vətən, bəqa…? Bunlar monoqrafiyada yalnız fəlsəfi kateqoriyaların standart düsturları ilə deyil, həm də Azərbaycan şeirinin – klassik poeziyanın konkret nümunələrilə tam şəkildə açıqlanmışdır. Bütün digər nümunələr təsdiqləyir ki, ezoterizm yalnız fəlsəfi anlayış deyil, həm də ədəbi-bədii anlamdır, insan haqqında Kainat haqqında araşdırma aparan elmlərin istinad edə biləcəyi anlamdır.

M.Abdullayeva ana dilimizin klassik ədəbi mənbələrdə, bir tərəfdən, fəlsəfi fikrin ifadəsində imkanlarını, digər tərəfdən, milli təfəkkürün qlobal kateqoriya kimi qədim dövrdən mövcudluğunu tam şəkildə sübut etmişdir.